**UOT1:101.1**
**https://doi.org/10.30546/ifs.2025.2(45).031**

# TARİX FƏLSƏFƏSİNİN TƏKAMÜLÜ: ANTİK DÖVRDƏN POSTMODERNİZMƏ

**Prof. Dr. Xaləddin İbrahimli**
Çağ Universiteti, **Türkiyə**
haleddinibrahimli@gmail.com
https://orcid.org/0000-0002-0184-3849

*"Tarix yalnız keçmişin hekayəsi deyil, həm də gələcəyin necə qurulacağını müəyyən edən bir düşüncə sahəsidir."*

**Xülasə.** Məqalədə tarix fəlsəfəsinin təkamülü sistemli və mərhələli şəkildə araşdırılır. Əsərin əvvəlində qədim dövrdə tarix yazmanın başlanğıc mərhələsi təsvir edilir. Herodot və Fukidid kimi ilk tarixçilər tarixi hadisələri müşahidə və tənqidi yanaşma əsasında izah etməyə çalışmışlar. Platon və Aristotel isə tarixə daha fəlsəfi baxış gətirmiş, toplumun və dövlətin mahiyyəti ilə bağlı ümumi qanunauyğunluqlar axtarmışlar. Orta əsrlərdə Avqustinus tarixi ilahi planın tərkib hissəsi kimi qəbul etmiş, İbn Xəldun isə tarixə ilk dəfə elmi və sosial faktorlar bucağından baxaraq çağdaş tarix fəlsəfəsinin əsaslarını qoymuşdur. Aydınlanma dövründə tərəqqi ideyası ön plana çıxmış, tarix insan ağlının inkişafı kimi qəbul edilmişdir. Bu mərhələdə Viko, Monteskyö, Kant və Hegel kimi filosoflar tarixə müxtəlif nəzəri yanaşmalar təqdim etmişlər. Xüsusilə Hegel tarixi dialektik proses kimi izah etmişdir. XIX əsrdə Marks tarixdə iqtisadi və sinfi amillərin əsas rol oynadığını göstərmiş, pozitivist tarix fəlsəfəsi isə tarixi hadisələrin obyektiv qanunlarla izah oluna biləcəyini müdafiə etmişdir. XX əsrdə Spenqler, Toynbi və postmodernist tarix fəlsəfəsi tarixə daha relyativist və çoxtərəfli yanaşmalar gətirmişdir. Müasir dövrdə isə tarix fəlsəfəsində əsas paradiqma dəyişiklikləri baş vermiş, obyektivlik iddiaları zəifləyərək, fərqli perspektivlərin və çoxsəsliliyin önəmi artmışdır. Araşdırmada tarix fərqli mədəniyyətlərin və fərdlərin baxışları əsasında formalaşan dinamik bir sahə kimi dəyərləndirilir.

**Açar sözlər:** tarix fəlsəfəsi, tarixçilik, paradiqma dəyişiklikləri, pozitivizm və obyektivlik, postmodernist tarix yanaşmaları, müasir tarix fəlsəfəsi, çoxtərəflilik və subyektivlik.

# THE EVOLUTION OF THE PHILOSOPHY OF HISTORY: FROM ANTIQUITY TO POSTMODERNISM

**Haladdin Ibrahimli**

**Abstract.** This article systematically and gradually examines the historical development of the philosophy of history. The article begins by examining the earliest forms of historical writing in antiquity. Early historians such as Herodotus and Thucydides attempted to explain historical events based on observation and critical analysis. Plato and Aristotle introduced a more philosophical perspective on history, seeking general principles concerning the nature of society and the state. In the Middle Ages, Augustine viewed history as part of a divine plan, while Ibn Khaldun laid the foundations of modern philosophy of history by interpreting history through scientific and social factors. During the Enlightenment, the idea of progress came to the forefront, and history come to be perceived as the unfolding of human reason. Philosophers such as Vico, Montesquieu, Kant, and Hegel offered various theoretical approaches to history during this period. Hegel, in particular, described history as a dialectical and teological process. In the 19th century, Marx emphasized the fundamental role of economic and class factors in historical development. The positivist philosophy of history defended the idea that historical events could be explained through objective laws. In the 20th century, thinkers such as Spengler and Toynbee, along with postmodernist approaches, introduced more relativistic and multifaceted perspectives to historical interpretation. In the contemporary period, major paradigm shifts

have occurred in the philosophy of history, as the emphasis on objectivity has weakened and the value of multiple perspectives has increased. Today, history is regarded as a dynamic field shaped by the viewpoints of different cultures and individuals.

**Keywords:** philosophy of history, historiography, paradigm shifts, positivism and objectivity, postmodern approaches to history, contemporary philosophy of history, plurality and subjectivity.

## ЭВОЛЮЦИЯ ФИЛОСОФИИ ИСТОРИИ: ОТ АНТИЧНОСТИ ДО ПОСТМОДЕРНИЗМА

**Халеддин Ибрагимли**

**Резюме.** В данной статье последовательно и систематически рассматривается историческое развитие философии истории. В начале работы описывается начальный этап исторического письма в древности. Ранние историки, такие как Геродот и Фукидид, пытались объяснять исторические события на основе наблюдений и критического анализа. Платон и Аристотель внесли в понимание истории более философский подход, основываясь на идее причинности, закономерности и природы общества и государства. В Средние века Августин предложил рассматривать историю как часть божественного замысла, а мыслители, такие как Ибн Халдун осуществляли попытки научного объяснения исторических процессов, анализируя их через социальные и природные факторы. В эпоху Просвещения на первый план вышла идея прогресса, и история стала восприниматься как развитие человеческого разума: философы этого периода, такие как Вико, Монтескье, Кант и Гегель, предлагали различные концептуальные подходы к пониманию исторического процесса. В XIX веке Маркс подчёркивал фундаментальную роль экономических и классовых факторов в историческом развитии. Позитивистская философия истории отстаивала идею о том, что исторические события можно объяснить с помощью объективных законов. В XX веке мыслители, такие как Шпенглер, Тойнби и представители постмодернистских подходов, предложили более релятивистские и многовариантные взгляды на историческую интерпретацию. В современный период произошли значительные парадигмальные сдвиги в философии истории: акцент на объективность ослаб, а значение множественности точек зрения и плюрализма возросло. Сегодня история рассматривается как динамическая область, формируемая взглядами различных культур и индивидов.

**Ключевые слова:** философия истории, историография, парадигмальные сдвиги, позитивизм и объективность, постмодернистские подходы к истории, современная философия истории, плюрализм и субъективность

### Giriş

Tarix yalnız keçmişin sadə xronologiyası deyil, həm də insanın öz varlığını anlamağa çalışdığı bir təfəkkür sahəsidir. Tarix fəlsəfəsi isə bu xronologiyaya dərinlik qazandıran, tarixdə bir məna, məqsəd, istiqamət axtaran və hadisələrin təhlili, həm də anlaşılması üçün araşdırma metodları formalaşdıran fəlsəfi düşüncələr toplusudur. Tarixçi hadisələri qeyd edir, fəlsəfə isə bu hadisələr arasında əlaqə qurmağa, onları ümumi bir məna sisteminə yerləşdirməyə çalışır. Bu baxımdan tarix fəlsəfəsi yalnız tarixi hadisələrin ardıcıllığını deyil, eyni zamanda tarixin mahiyyətinə dair ontoloji və epistemoloji sorğuları da əhatə edir. Bu iki fəlsəfi istiqamət tarixin nə olduğu və bu bilik sahəsinin necə qurulduğu ilə bağlı əsaslı məsələləri gündəmə gətirir.

Ontologiya fəlsəfənin varlıq, mövcudluq və gerçəklik anlayışlarını araşdıran əsas sahələrindən biridir. Bu sahə hansı növ varlıqların reallıqda mövcud olduğunu, onların necə mövcudluq qazandığını və varlığın ən ümumi xüsusiyyətlərini dəyərləndirir. Ontologiya, sadəcə, “nə mövcuddur?” sualını verməklə kifayətlənmir, həm də mövcud olanın necə mövcud olduğunu, bu varlığın mahiyyətini və strukturunu anlamağa çalışır. Bu baxış tərzi fəlsəfənin müxtəlif sahələrinə, o cümlədən tarix fəlsəfəsinə də tətbiq edilir.

Tarix fəlsəfəsində ontoloji yanaşma "tarix" anlayışının özünün varlığını və mahiyyətini sorğulayan bir perspektiv təqdim edir. Burada əsas məqsəd tarixin yalnız hadisələrin ardıcıllığı kimi

deyil, həm də fəlsəfi baxımdan "nədir?" sualına cavab tapmaqdır. Bu çərçivədə ontoloji yanaşma aşağıdakı əsas suallar ətrafında formalaşır:

- Tarix real bir varlıqdırmı? Yəni tarix, insan iradəsindən və düşüncəsindən asılı olmadan mövcud olan obyektiv bir reallıqdırmı, yoxsa tarix dediyimiz anlayış insan şüurunun, sosial təcrübənin və mədəni kodların yaratdığı bir konstruksiyadır? Bu suala veriləcək cavab, tarixi obyektiv bir gerçəklik kimi qəbul etmək ilə onu subyektiv və kontekstə bağlı bir narrativ olaraq görmək arasındakı fərqi müəyyən edir.

- Tarixi hadisələr arasında qanunauyğunluq və məqsədyönlülük varmı? Bu sual tarixin müəyyən bir istiqamətə - məsələn, irəliləyişə, azadlığa, mükəmməlləşməyə doğru inkişaf edən teleoloji (məqsədyönlü) bir proses olub-olmadığını araşdırır. Yoxsa tarix daha çox təsadüfi hadisələr zənciri, xaotik və nəzarətsiz bir axın kimi dəyərləndirilməlidir? Bu məsələdə fərqli fəlsəfi mövqelər mövcuddur: bəzi yanaşmalar (məsələn, hegelçi və marksist tarix fəlsəfəsi) tarixə müəyyən bir daxili məntiq və inkişaf qanunauyğunluğunu aid edir, digərləri isə (məsələn, postmodernist yanaşmalar) bu cür teleoloji modelləri tənqid edərək tarixi çoxsəslilik və təsadüflərlə dolu bir proses kimi görür.

- Ontoloji yanaşmanın məqsədi tarixi hadisələrin və strukturların nə dərəcədə obyektiv və zəruri olduğunu, tarixin özündə müəyyən bir struktur və məntiqin olub-olmadığını aydınlaşdırmaqdır. Bu, həmçinin insanın tarix qarşısındakı mövqeyini - passiv müşahidəçi, fəal iştirakçı və ya tarix yaradan subyekt kimi rolunu da müəyyənləşdirməyə yardım edir.

Digər tərəfdən, tarix fəlsəfəsində mühüm yer tutan sahələrdən biri də epistemologiya, yəni bilik nəzəriyyəsidir. Epistemologiya insanın bilik əldə etmə üsullarını, biliklərin qaynaqlarını, doğruluğunu, əsaslandırılmasını və sərhədlərini araşdırır. Tarix kontekstində epistemoloji yanaşma insanın keçmişə dair əldə etdiyi biliklərin necə formalaşdığını və bu biliklərin nə qədər etibarlı olduğunu sorğulayır.

Bu yanaşma çərçivəsində aşağıdakı təməl suallar ön plana çıxır:

- Biz keçmişi necə bilirik? Tarixçinin keçmişi birbaşa müşahidə etməsi mümkün deyil; bu səbəblə keçmiş hadisələr haqqında biliklər dolayı qaynaqlardan - sənədlər, arxiv materialları, şifahi tarix, maddi mədəniyyət örnəkləri, xatirələr və yazılı qaynaqlar vasitəsilə əldə edilir. Bu isə keçmişi bilmək məsələsini həm metodoloji, həm də fəlsəfi baxımdan problemli hala gətirir.

- Hansı qaynaqlara əsaslanırıq və bu qaynaqların etibarlılığı nə dərəcədə təmin olunur? Tarixçi üçün məlumatın qaynagı qədər, həmin qaynagın necə seçildiyi, necə şərh edildiyi və hansı nəzəri çərçivəyə yerləşdirildiyi də böyük əhəmiyyət daşıyır. Məsələn, eyni hadisəni fərqli ideoloji mövqedə olan tarixçilər fərqli şəkildə təqdim edə bilərlər. Beləliklə, tarixi bilik yalnız faktların toplanması deyil, eyni zamanda interpretasiya (yorum) prosesidir.

- Tarix yazımı nə qədər obyektiv ola bilər? Bu sual tarixçiliyin elmi statusunu da gündəmə gətirir. Tarixi bilik müşahidə və təcrübəyə əsaslanan təbiət elmləri ilə eyni səviyyədə obyektiv bir bilik növü sayılmalıdırmı? Yoxsa, tarixi bilik dil, ideologiya, mədəniyyət və mövqeyə bağlı olaraq dəyişən subyektiv bir anlayışdır? Bu sual ətrafında pozitivist, hermenevtik və postmodern yanaşmalar arasında ciddi fərqlər mövcuddur.

Epistemoloji yanaşma bu suallar vasitəsilə tarixçinin öz mövqeyini, istifadə etdiyi nəzəri çərçivəni, ideoloji yönünü, dil və anlatma üsulunu analiz etməyə şərait yaradır. Tarixçinin hansı hadisələri seçdiyi, necə təsvir etdiyi, nəyi vurğuladığı və nəyi kənarda buraxdığı - bütün bunlar epistemoloji sorğunun tərkib hissəsidir.

Beləliklə, epistemoloji yanaşma yalnız keçmişin özünü deyil, keçmiş haqqında danışma və yazma formalarını, bilik istehsalının sosial və ideoloji şərtlərini, eləcə də tarixin "elm" kimi statusunu araşdırır. Bu yanaşma tarixçiliyin, sadəcə, keçmişi təsvir edən neytral bir fəaliyyət olmadığını, əksinə, mövcud güc münasibətləri, dil strukturları və ideoloji çərçivələr içində formalaşan bir bilik sahəsi olduğunu göstərir.

Nəticə etibarilə, tarix fəlsəfəsi ontoloji səviyyədə tarixin gerçəkliyini və məqsədini sorğularkən, epistemoloji səviyyədə bu gerçəklik haqqında bilik istehsalının şərtlərini və məhdudiyyətlərini analiz edir. Bu iki yanaşmanın qarşılıqlı təsiri tarixi hadisələrə və proseslərə dair daha dərindən və çoxşaxəli bir anlayış formalaşdırmağa imkan verir.

Tarix fəlsəfəsi, sadəcə, keçmişi deyil, eyni zamanda bu günümüzü və gələcək gözləntilərimizi də formalaşdırır. O, tarixdə bir məqsəd olub-olmadığını, tarixin təkrarlanan dövrlərdənmi, yoxsa xətti

irəliləyişdənmi ibarət olduğunu sorğulayır. Həmçinin, tarixdə subyektivliyə və ideologiyaya nə dərəcədə yer ayrıldığını, insan iradəsininmi, yoxsa tarixi qanunauyğunluqlarınmı müəyyənedici olduğunu araşdırır. Bu suallar təkcə akademik xarakter daşımır, həm də toplumların öz keçmişlərinə, kimliklərinə və gələcək planlarına münasibətini formalaşdırır. Beləliklə, tarix fəlsəfəsi, insanın zaman içindəki mövcudluğunu anlaması üçün əvəzolunmaz intellektual vasitədir.

Bu məqalənin məqsədi tarix fəlsəfəsinin antik dövrdən postmodern dövrə qədər keçdiyi təkamül yolunu izləmək və əsas fəlsəfi yanaşmaları sistemli şəkildə təhlil etməkdir. Bu çərçivədə cavab axtarılan əsas sual belədir: "**Tarix prosesində obyektiv bir məna və istiqamət varmı, yoxsa tarix insan şüurunun və diskursunun (fikir və ya mənaların ardıcıl və mətnləşmiş ifadəsi) məhsuludur?**" Bu sual ətrafında aparılan müzakirələr tarix fəlsəfəsinin müxtəlif dövrlərdə necə formalaşdığını və hansı ideoloji, mədəni, siyasi və elmi kontekstlərdə inkişaf etdiyini anlamağa imkan verir.

Metodoloji olaraq məqalə həm xronoloji, həm də analitik yanaşmanı birləşdirir. Əvvəlcə antik dövrdə Herodot və Platon kimi filosofların tarixə baxışı təqdim edilir, daha sonra orta əsrlərdə Avqustinus və İbn Xəldun kimi alimlərin teoloji və sosioloji baxışlarına yer verilir. Yeni dövrdə isə Hegelin idealist, Marksın materialist yanaşmaları və aydınlanma dövrünün proqressiv tarix konsepsiyası incələnir. Sonda, postmodern dövrünün təmsilçiləri olan Lyotard, Fuko və Fukuyamanın baxışları işıqlandırılır.

Bu analitik izah tarix fəlsəfəsində ideyaların necə dəyişdiyini, bəzi anlayışların necə transformasiya olunduğunu və bəzən bir-birinə zidd nəzəriyyələrin necə paralel şəkildə mövcud olduğunu göstərmək məqsədi daşıyır. Beləliklə, məqalə tarix fəlsəfəsinin, sadəcə, keçmişi dərk etmək üçün deyil, həm də bu günü və gələcəyi anlamağa yönələn canlı bir düşüncə sahəsi olduğunu oxucuya çatdırmağı hədəfləyir.

## Tarixə fəlsəfi baxışın doğuşu: Antik və Orta çağ

***Herodot və Fukidid: tarixin ilkin anlayışı.*** Tarixin fəlsəfi təhlilinin təməli antik yunan dünyasında qoyulmuşdur. Bu dövrdə tarix yalnız keçmişin sadə xronikası kimi deyil, insan fəaliyyətinin və toplumun dinamikasının təhlili kimi formalaşmağa başlamışdır. Tarixi düşüncənin bu erkən mərhələsində **Herodot** və **Fukidid** kimi iki böyük şəxsiyyətin baxışları bir-birindən fərqli yanaşmalarla tarix fəlsəfəsinin inkişafında əsaslı rol oynamışdır.

Herodot "tarixin atası" kimi tanınsa da, onun tarixə yanaşması bu gün anladığımız elmi tarixdən daha çox, **mifoloji, əfsanəvi və didaktik elementlərlə zəngin** bir rəvayətçilik idi. Onun "Historiai" (“Tarixlər”) əsəri yalnız hadisələrin deyil, eyni zamanda onların səbəblərinin, insan davranışlarının və mədəni fərqliliklərin də izahını verirdi. Herodot üçün tarix **insan təcrübəsindən nəticə çıxarma vasitəsi**, **ibrət götürmə aləti** idi. Onun tarixə bu cür baxışı aşağıdakı fikrində aydın ifadə olunur: "İnsanların zaman içində necə yaşadıqlarını öyrənərək, onların böyük və heyrətamiz işlərinin unudulmamasını təmin etmək istəyirəm" [10, s. 3].

Bu yanaşma onu fəlsəfi tarix düşüncəsinin təməlini atan şəxs kimi önə çıxarır. *Herodot*un mədəniyyətlərə marağı və qarşılaşdırmalı yanaşması tarixə universal baxış qazandırırdı. O, tarixdə təkrarlanan səbəb-nəticə əlaqələrini axtarır və hadisələrin arxasında yatan "insan təbiətini" anlamağa çalışırdı.

Fukidid isə Herodotdan fərqli olaraq tarixə daha **analitik və rasional** yanaşma gətirmişdi. O, **Peloponnes müharibələri** haqqında yazarkən hadisələrin əfsanəvi yönlərini kənara qoyur, **siyasi və psixoloji səbəblərə** diqqət yetirir. Fukidid tarixdə **insan təbiətinin dəyişməzliyinə** və hadisələrin bu təbiət üzərindən təkrarlanacağına inanırdı. Bu, tarixə erkən dövrdə **ontoloji** yanaşmanın örnəyidir, yəni tarixdə sabit və anlaşılacaq bir məna axtarışıdır. Fukidid yazırdı: "Mən bu hadisələri gələcəkdə də insan təbiətinin dəyişməyəcəyinə inanaraq yazıram; çünki bu təbiət oxşar vəziyyətlərdə oxşar reaksiyalar verəcək" [10, *Kitab I, s. 22*].

Fukidid üçün tarix elmi bir araşdırmadır. O, şahid ifadələrini incələyir, hadisələri səbəb-nəticə əlaqəsində təqdim edir və bu baxımdan **ilk metodoloji tarixçi** kimi tanınır. Onun əsərində "hakimiyyət istəyi", "qorxu" və "çıxar" kimi anlayışlar, insan və siyasət psixologiyasının əsas amilləri kimi təqdim olunur. Bu yanaşma, tarix fəlsəfəsində sonralar Makiavelli və Hobbs kimi realist filosoflara təsir etmişdir.

*Platon və Aristotel: idealist və realist yanaşmalar.* Antik Yunan fəlsəfəsinin nəhəng simaları olan Platon və Aristotel tarixə yanaşmaları ilə də fəlsəfi düşüncənin inkişafına böyük təsir göstərmişlər. Hər ikisi üçün tarix birbaşa mövzu olmasa da, onların zaman, dəyişmə, toplum və bilik haqqında fikirləri tarix fəlsəfəsinin ontoloji və epistemoloji əsaslarının formalaşmasına mühüm zəmin yaratmışdır.

Platonun düşüncəsində tarix ideallar dünyasının zamanla pozulması və insanın bu itirilmiş nizamı bərpa etmək cəhdləri ilə əlaqələndirilir. Onun "Dövlət" (Politeia) dialoqunda təsvir etdiyi ideal toplum modeli, əslində, keçmişdə bir zaman yaşanmış və zaman keçdikcə pozulmuş düzəni xatırladır. Platon üçün dəyişmə bərbadlaşma və dəyərlərin degenerasiyası ilə əlaqəlidir. O, tarixi xətti inkişaf prosesi deyil, idealdan uzaqlaşma kimi görür və yazır: "Ədalət yalnız fərdi yox, bütöv bir dövləti quranda özünü göstərir; amma bu ideal dövlət zamanla deformasiyaya uğrayacaq" [20, V kitab, s. 132].

Bu baxımdan Platonun yanaşması ontoloji olaraq idealist xarakter daşıyır. O, maddi reallığı dəyişkən və qeyri-mükəmməl, ideyalar aləmini isə əbədi və sabit hesab edir. Tarix isə bu ideyaların itirilməsinin nəticəsi kimi təqdim olunur. Platonun bu fikirləri, sonralar Avqustin və Hegelin teleoloji tarix anlayışında öz əksini tapmışdır.

Aristotel Platonun idealizmindən fərqli olaraq, dünyanı empirik, müşahidəyə əsaslanan və gerçəklik yönümlü şəkildə təhlil edirdi. Onun "Siyasət" və "Etika" əsərlərində toplumların inkişaf mərhələləri, dövlət formalarının çevrilməsi və insanın tarixi davranışları ilə bağlı mühüm mülahizələrə rast gəlmək mümkündür. Aristotelə görə, insan "siyasi varlıqdır" və onun toplumdakı fəaliyyəti zamanla dəyişir, ancaq bu dəyişmələr müəyyən qanunauyğunluqlara tabedir: "İnsan təbiəti toplum içində yaşamağa meyillidir və hər toplum öz təbiətinə uyğun şəkildə formalaşır və dəyişir" [1, I kitab, s. 12].

Aristotel dövlətlərin monarxiya, aristokratiya və demokratiya kimi müxtəlif formalarının necə bir-birinə çevrildiyini və bu çevrilmələrin səbəblərini təhlil edərək, tarixdə bir realist dövriyyə (dairəvi və təkrarlanan, enən və qalxan, artan və azalan, irəliləyən və geriləyən bir ritm içində dəyişən tsiklik model) anlayışı formalaşdırmışdır. Bu fikir sonralar Polibi, İbn Xəldun və Spenqler kimi tarixçilərin nəzəriyyələrində də təzahür etmişdir.

Onun dörd səbəb nəzəriyyəsi (materiya, forma, səbəb və məqsəd) tarixə tətbiq olunduqda, hadisələrin çoxsəbəbli izahına imkan verir. Bu isə tarix fəlsəfəsində empirik və rasional yanaşmanın əsasını qoyur və bizə böyük dəyişmələrin bir səbəbə bağlı olmadığını öyrədir.

*Avqustin: tarixə teleoloji (tanrısal plan) baxış.* Tarix fəlsəfəsində teleoloji yanaşmanın ilk sistemli formalaşması xristian ilahiyyatçısı və filosofu Avrelius Avqustin (354–430) ilə bağlıdır. Onun məşhur "Tanrı şəhəri" (De Civitate Dei) əsəri tarixə sırf dini deyil, həm də metafizik və fəlsəfi çərçivədə teleoloji baxışın ilk nümunələrindəndir. Avqustin tarixə təsadüfi və xaotik hadisələr yığını kimi deyil, Tanrı tərəfindən əvvəlcədən müəyyən edilmiş bir planın həyata keçməsi kimi yanaşır.

Avqustinin tarix anlayışı insanlığın "günah, xilaskar, qurtuluş" kimi əsas xristian doktrinalarına əsaslanır. O, bəşər tarixini iki şəhərin - Tanrı şəhəri ilə Dünya şəhəri arasındakı mübarizə kimi təqdim edir. Tanrı şəhəri ilahi ədalətə dayanır və iman əsasında qurulmuşdur, Dünya şəhəri isə insan ehtiraslarının, eqoizmin və təkəbbürün hökm sürdüyü sahədir. Bu iki şəhər bəşəriyyətin bütün tarixində paralel şəkildə mövcuddur və tarix Tanrı şəhərinin qələbəsi ilə tamamlanacaqdır: "İki sevgi iki şəhəri yaratdı: Tanrı şəhəri Tanrıya itaətdən doğan sevgi ilə, Dünya şəhəri isə özünü sevməkdən doğan itaətsizliklə" [2, Kitab XIV, s. 28].

Bu sitatda Avqustinin etik və teoloji dualizmi aydın şəkildə görünür. Tarix bu dualizmin zaman içində gərgin mübarizəsinə çevrilir. Onun fikrincə, bu mübarizənin nəticəsi əvvəlcədən məlumdur: Tanrı şəhəri axirətdə zəfər çalacaq. Beləliklə, tarix Tanrının iradəsinə uyğun olaraq son məqsədə yönəlmişdir - bu isə teleoloji tarix anlayışının əsasını təşkil edir.

Avqustin tarixdə hadisələrin təsadüfi baş vermədiyini müdafiə edir. Ona görə görünən xaos və fəlakətlər də Tanrının böyük planının bir hissəsidir və yalnız imanla bu planın mənası dərk edilə bilər. Bu baxış antik dövrilik konsepsiyasından fərqli olaraq, tarixi düz xətt üzrə inkişaf edən və son məqsədə yönəlmiş bir proses kimi təqdim edir: "Zaman Tanrının yaratdığı bir varlıqdır; o, başlanğıcla başladı və sonla sona çatacaq" [2, Kitab XIV, s. 6].

Bu fikir Avqustinin həm ontoloji, həm də epistemoloji baxımdan tarixə fərqli yanaşdığını göstərir. Zaman və tarix Tanrıya bağlıdır, buna görə də onlar yalnız Tanrının məqsədini anlayaraq mənalandırıla

bilər. Bu anlayış sonralar xristian Avropa düşüncəsində dominant tarix modelinə çevrildi və Hegelin "dünya ruhu" və ya Marksın "tarixin qanunauyğun inkişafı" kimi modern nəzəriyyələrdə izini buraxdı.

Beləliklə, Avqustinin teleoloji tarix fəlsəfəsi tarixə yalnız geriyə dönən bir refleksiya kimi deyil, həm də əxlaqi və esxatoloji (axirətə dair) bir hədəf yönlü proses kimi yanaşmanı əsaslandırır. Onun əsərləri tarix fəlsəfəsində zamanın mənası, tarixi subyektin kimliyi və gələcəyə dair ümidin nə ilə əsaslandırıla biləcəyi kimi fundamental sualların başlanğıc nöqtəsi olmuşdur.

*İbn Xaldun: sosioloji tarix fəlsəfəsinin banisi.* Orta əsrlər İslam dünyasında tarixə sistemli və analitik yanaşmanın zirvəsi İbn Xaldundur (1332–1406). Onun "əl-Muqəddimə" (Giriş) adlı əsəri yalnız İslam tarixçiliyi üçün deyil, ümumiyyətlə, tarix fəlsəfəsi və sosiologiya üçün də önəmli dönüş nöqtəsi hesab olunur. İbn Xaldun tarixə ilk dəfə olaraq ictimai qanunauyğunluqlar, iqtisadi və siyasi səbəblər, eləcə də psixoloji və mədəni dinamika əsasında yanaşan filosof kimi qəbul edilir.

Avqustinus tarixdə Tanrının planını, Platon ideallarin pozulmasını axtararkən, İbn Xaldun tarixi hadisələrin dünyəvi, maddi və sosioloji səbəblərlə izah edilə biləcəyini göstərmişdir. Onun üçün tarix yalnız keçmişi qeyd etmək deyil, həm də toplumların fəaliyyət prinsiplərini anlamaq üçün bir elmdir: "Tarix gerçəkdə yalnız keçmişin xəbəri deyil, eyni zamanda onun gerçək səbəblərini ortaya çıxaran bir düşüncə fəaliyyətidir" [11, I cild, s. 45].

İbn Xaldun tarixə yanaşmada tənqidi düşüncə və skeptisizm tətbiq edirdi. O, tarixçilərin çox zaman əfsanə və miflərlə həqiqəti qarışdırdığını vurğulayaraq, məlumatların qaynaq baxımından yoxlanmalı olduğunu qeyd etmişdir. Bu yanaşma onun tarixə yalnız rəvayətçilik deyil, epistemoloji məsuliyyətlə yanaşdığını göstərir.

Əsərinin əsas konsepsiyalarından biri "asabiyyə" (qohumluq bağlarından doğan kollektiv şüur və birlik) anlayışıdır. İbn Xalduna görə, dövlətlərin və imperiyaların yüksəlişi və süqutu bu sosial enerjinin gücü ilə sıx əlaqəlidir. Asabiyyə ilə güclənən toplumlar əvvəlcə hakimiyyəti ələ alır, lakin zamanla şəhər həyatının dəbdəbəsi və fərdi maraqlar bu birliyi zəiflədir və dövlət tənəzzülə uğrayır. Bu nəzəriyyə tarixdə dövrilik anlayışının sosioloji əsaslara söykənən ilk forması kimi qəbul edilə bilər. İbn Xaldun yazırdı: "Asabiyyə hakimiyyətin əsas dayağıdır. Onun gücü ilə dövlət qurular və zəifləməsi ilə süquta uğrayar” [11, II cild, s. 127].

Bu yanaşma tarixdə determinist (qaçılmazlıq), lakin teoloji olmayan qanunların mümkünlüyünü müdafiə edir. Yəni, tarix təkcə Tanrının iradəsi ilə deyil, insan toplumlarının daxili dinamikası ilə də formalaşır. Bu baxımdan İbn Xaldun həm ontoloji realist, həm də epistemoloji tənqidi bir mövqe tutur.

Onun iqtisadi inkişaf, peşə bölgüsü, şəhər həyatının təsiri və əhalinin roluna dair fikirləri, tarixə çoxsəviyyəli struktur analizlər gətirmiş və müasir sosiologiyanın (xüsusilə Durkheim və Veberin) formalaşmasına zəmin yaratmışdır.

Beləliklə, İbn Xaldunun irsi tarix fəlsəfəsində empirik, rasional və çoxfaktorlu izahın ilk böyük modeli olaraq önə çıxır. O, tarix yazmada mif və ideologiyadan uzaq duraraq, elmi tənqid və sosial analiz metodunu tətbiq etməklə, həm İslam dünyasında, həm də ümumbəşəri intellektual tarixdə özünəməxsus yer tutur.

Beləliklə, Antik və Orta çağda formalaşan bu müxtəlif fəlsəfi yanaşmalar tarixə fərqli metafizik, teoloji və sosioloji baxış bucaqları qazandıraraq, tarix fəlsəfəsinin metodoloji və anlayış bazasını formalaşdırmışdır. Herodotdan İbn Xalduna qədər uzanan bu düşüncə xətti tarixi yalnız keçmişin qeydi kimi deyil, insan təbiətini, toplumun quruluşunu və zaman anlayışını sorğulayan fəlsəfi bir fəaliyyət kimi təqdim edir.

**Yeni çağda tarixin mənalandırılması: Aydınlanma və Hegelçi ideallar**

*Viko və Volter: tarix və mədəniyyətin inkişafı.* Yeni çağla birlikdə tarix fəlsəfəsində əsaslı bir istiqamət dəyişikliyi baş verdi. Antik və orta çağda tarix ya təbii dövrlər, ya da Tanrının iradəsi çərçivəsində şərh edilirdisə, aydınlanma dövrünün filosofları tarixi insan ağlının və mədəni inkişafın nəticəsi kimi izah etməyə başladılar. Bu baxış tarixə proqressiv və humanist bir çərçivədən yanaşmanı ortaya qoydu. Bu dövrdə Cambatista Viko və Volter kimi filosoflar tarixə yeni fəlsəfi yön verərək, mədəniyyətin, dilin və ictimai qurumların inkişafına əsaslanan bir yanaşma formalaşdırdılar.

İtalyan filosofu Cambatista Viko (1668–1744) modern tarix fəlsəfəsinin banilərindən biri kimi tanınır. Onun məşhur "Yeni elm" (Scienza Nuova) əsəri tarixə sistemli şəkildə fəlsəfi və mədəni analiz

gətirən ilk cəhdlərdəndir. Viko tarixin qanunauyğun dövri bir sistem olduğu, millətlərin və mədəniyyətlərin öz inkişaflarında müəyyən mərhələlərdən keçdikləri ideyasını irəli sürmüşdür.

Vikoya görə, millətlərin tarixi dövri (tsiklik) xarakter daşıyır və bu inkişaf eynən insanın inkişaf mərhələlərinə bənzəyir: uşaqlıq (ilahi çağ), yeniyetməlik (qəhrəmanlıq çağı) və yetkinlik dövrü (insanlıq çağı). Tarixdə hər bir millət də öz inkişafında bu üç mərhələdən keçir: ilahi çağ, qəhrəmanlıq çağı və insanlıq çağı. Bu mərhələlərdə dil, din, hüquq və ictimai münasibətlər də təkamül edir. Toplumlar ilk olaraq mifoloji dünyagörüşlə yaşayır, sonra qəhrəmanlıq dövründə institutları qurmağa başlayır və nəhayət, ağıl və hüquq üzərində qurulan insan çağına keçirlər. Viko üçün bu mərhələlər yalnız xronoloji deyil, həm də mədəni və simvolik inkişafın göstəricisidir: "İnsanlar öz tarixlərini özləri yaradırlar, lakin bunu həmişə bilmədən və fərqində olmadan edirlər" [25, s. 76]. Bu sitatda Viko tarixin subyekti olaraq insanın rolunu vurğulasa da, prosesin şüuraltı, mədəni və strukturlaşmış tərəflərinə də diqqət çəkir. O, tarixi nə tam rasionallığa, nə də sadəcə, təsadüfə bağlayır; əksinə, mədəniyyətin daxili ritmini və simvolik ifadəsini əsas götürür. Vikonun bu yanaşması sonralar Hegelin və Toynbinin mədəniyyət dövrü anlayışına təsir göstərmişdir.

Fransız maarifçi filosofu Volter (1694–1778) tarixi dini şərhlərdən azad edib, onu daha çox ağıl, təcrübə və irəliləyiş anlayışları çərçivəsində izah etməyə çalışmışdır. Onun "Millətlərin adətləri və ruhları haqqında esselər" (Essai sur les mœurs et l'esprit des nations) əsəri tarixi yalnız Avropa mərkəzli və ya ilahi planlı bir proses kimi deyil, mədəniyyətlərin və fərqli toplumların rasional inkişaf tarixi kimi təqdim edir.

Volterin tarixə yanaşması sekulyar, empirik və universalist idi. O, fərqli xalqların adət-ənənələrinə, dini baxışlarına və iqtisadi münasibətlərinə maraq göstərərək tarixyazmada mədəni plüralizmi önə çıxarırdı. Volter üçün tarix, sadəcə, kralların və savaşların xronikası deyil, insan ağlının öz “*zeitgeisti*” ilə (konkret bir dövrün ictimai, mədəni və intellektual mühitini, yəni “zamanın ruhunu” ifadə edən anlayışdır) münasibətdə formalaşması prosesidir. O yazırdı: "Tarix nə Tanrının planı, nə də sadəcə, kralların həyat hekayəsidir; o, insanlığın ağıl və əxlaqla irəliləməsidir" [26, s. 15].

Volterin bu baxışı tarixdə tərəqqi ideyasının güclənməsinə və aydınlanma rasionalizminin tarixi bucaqdan şərhinə əsas yaratdı. O, dövrilik anlayışını rədd edir, bunun əvəzinə tarixi xətti və təkamülə dayanan bir proses kimi dəyərləndirirdi. Volterin tarix fəlsəfəsində əsas hədəfi ağlın, azadlığın və humanist dəyərlərin inkişafını izah etmək idi.

*Kant və Hegel: azadlıq, ağıl və dünya ruhu.* Aydınlanma dövrü ilə birlikdə tarix fəlsəfəsində radikal bir transformasiya baş verir. Tarix artıq təkcə keçmişin qeydi və ya teoloji yozum deyil, insan ağlının və azadlığının zaman içindəki inkişafı kimi düşünülür. Bu dövrdə İmmanuel Kant və Hegel kimi filosoflar tarixə sistematik və fəlsəfi çərçivədə yanaşaraq, onun mahiyyətini, məqsədini və istiqamətini ontoloji və teleoloji əsaslarla izah etməyə çalışmışlar. Kant üçün tarix praktik ağlın gerçəkləşmə prosesi, Hegel üçün isə dünya ruhunun özünü dərketmə tarixi idi. Hər iki filosof tarixə proqressiv və məqsədyönlü bir dinamika kimi yanaşaraq, modern tarix fəlsəfəsinin əsas sütunlarını formalaşdırmışlar.

İmmanuel Kant (1724–1804) "İnsan tarixində ümumbəşəri baxımdan bir ideya" adlı məqaləsində tarixi ağlın və əxlaqın zaman içində inkişaf edən bir strukturu kimi təqdim edir. Kantın tarixə yanaşması teleoloji və normativ xarakter daşıyır. O, insan təbiətində azadlıq potensialının olduğunu və bu potensialın zamanla ictimai və siyasi strukturlar vasitəsilə inkişaf edəcəyi fikrini müdafiə edirdi.

Kanta görə, təbiət insanı azad və rasional bir varlıq kimi yaratmış, lakin bu qabiliyyətlərin inkişafı üçün zaman və tarixi proses zəruri olmuşdur. Bu proses isə çox zaman çatışmalar və qarşıdurmalar vasitəsilə baş verir. Onun fikrincə, tarixdəki müharibələr, qarşıdurmalar və siyasi dəyişikliklər "ağlın gizli planı" çərçivəsində insanın daha ədalətli və rasional toplum qurmaq potensialını inkişaf etdirir. Filosofun fikrinə görə, "tarixdəki xaotik görünən hadisələr, əslində insan təbiətinin potensiallarını ortaya çıxarmaq üçün təbiətin gizli planının ifadəsidir" [13, s. 12].

Kantın tarixə baxışı, dünya vətəndaşlığı, qlobal əxlaq və təbii hüquq anlayışları ilə vəhdətdədir. O, dövlətlərin və xalqların qarşılıqlı müharibələrinin nəticə etibarilə dünya hüquq sisteminə doğru təkamülünü iddia edir. Onun nəzərində tarix, insanlığın "ümumbəşəri sülh və hüquqi nizam" istiqamətində irəlilədiyi bir prosesdir. Bu, həm etik teleologiya, həm də siyasi idealizm ilə şərtlənmiş tarix fəlsəfəsi modelidir. Məsələn, Birinci və İkinci Dünya Müharibələrindən sonra yaranan Birləşmiş Millətlər Təşkilatı (BMT) və Beynəlxalq İnsan Hüquqları Bəyannaməsi (1948) Kantın tarixə dair

ümumbəşəri hüquq və sülhə doğru irəliləyiş ideyasına konkret örnək kimi göstərilə bilər. İki dağıdıcı qlobal çatışmadan sonra beynəlxalq ictimaiyyətin müharibəni qadağan edən və insan hüquqlarını qoruyan qlobal hüquqi sistem qurmağa cəhd etməsi, Kantın "ağlın gizli planı"na uyğun olaraq, keçmişin fəlakətlərindən nəticə çıxararaq daha ədalətli və sülhpərvər bir gələcək qurmaq iradəsinin ifadəsidir.

Hegel (1770–1831) isə tarix fəlsəfəsində daha sistemli, dialektik və metafizik bir yanaşma ortaya qoymuşdur. Onun "Tarix fəlsəfəsi mühazirələri" (Vorlesungen über die Philosophie der Geschichte) adlı əsəri, tarixə dair ən təsirli və mübahisəli fəlsəfi baxışlardan birini formalaşdırmışdır. Hegelə görə, tarix dünya ruhunun (Veltgeist) özünü zaman içində təzahür etdirməsi və azadlıq ideyasının reallaşması prosesidir.

Hegel hər bir tarixi mərhələdə ideyanın inkişafını, yəni tezis–antitezis–sintez dialektikası ilə başa düşür. Bu modelə əsasən, hər bir tarixi vəziyyət ziddiyyətini yaradır və bu ziddiyyətin həlli yeni bir mərhələnin yaranmasına səbəb olur. Hegelin fikrincə, bu dialektik prosesin məqsədi azadlığın tədrici şəkildə gerçəkləşməsi və ruhun öz mahiyyətini dərk etməsi, "dünya tarixi, azadlığın şüura yerləşməsi və gerçəkləşməsi prosesidir" (Hegel, The Philosophy of History, s. 19). Bu anlayışa görə, tarix yalnız hadisələrin ardıcıllığı deyil, həm də şüurun və ruhun inkişaf mərhələləri ilə bağlıdır. Fransız İnqilabı Hegelin dialektik tarix anlayışının klassik bir nümunəsidir ki, məhz İnqilab vasitəsilə fərdi azadlıq ideyası ümumi şüur səviyyəsinə çıxmışdır. Burada əvvəlki siyasi quruluş (tezis), ona qarşı yaranan xalq hərəkatı (antitezis) və nəticədə yeni bir hüquq və azadlıq sistemi (sintez) şəklində bir dialektik inkişaf müşahidə olunur. Bu proses azadlığın gerçəkləşməsi və insan ruhunun öz azad mahiyyətini dərk etməsi istiqamətində bir mərhələ təşkil edir.

Amerika Birləşmiş Dövlətlərinin[1] müstəqillik prosesi Hegelin dialektik inkişaf modelinə uyğun başqa bir örnəkdir. Əvvəlcə Şimali Amerikadakı koloniyalar Britaniya imperiyasının siyasi və iqtisadi idarəsi altında idi (tezis). Zamanla, koloniyalarda azadlıq, özünüidarə və hüquqlar kimi ideyaların inkişafı, xüsusilə də vergi və siyasi təmsilçilik məsələlərindəki narazılıq (antitezis) bu statusa qarşı reaksiya doğurdu. Bu gərginlik 1776-cı ildə ABD-nin Müstəqillik Bəyannaməsi ilə kulminasiya nöqtəsinə çatdı və koloniyalar Britaniyadan ayrıldı. Beləliklə, yeni bir dövlət - azadlığa, fərdi hüquqlara və xalq suverenliyinə əsaslanan Amerika Birləşmiş Dövlətləri (sintez) meydana gəldi. Hegelin baxışına görə, bu proses azadlıq ideyasının daha yüksək və daha şüurlu bir mərhələdə gerçəkləşməsi və insan ruhunun öz azad mahiyyətini dərk etməsi kimi qiymətləndirilə bilər.

Hegel tarixi, bir "dünya məhkəməsi" kimi görür; burada xalqlar və dövlətlər ideyaların daşıyıcısıdır. Misal üçün, qədim Şərqdə azadlıq yalnız bir nəfərə (padşaha), Yunanlarda bir neçə nəfərə, müasir Avropada isə bütün insanlara aid edilərək inkişaf etmişdir. Bu yanaşma Hegelin tarixdə azadlıq ideyasının genişlənməsi tezisinə əsaslanır.

Bununla yanaşı, Hegel tarixdə müəyyən xalqlara və mədəniyyətlərə "universal ruhun daşıyıcısı" olaraq daha mərkəzi yer ayırır. Bu, onun avropamərkəzçi və teleoloji baxışlarına yönəlik tənqidlərə səbəb olmuşdur. Lakin bu mövqe həm də tarixə fəlsəfi struktur vermə cəhdinin ən inkişaf etmiş nümunələrindən biridir.

*Kant və Hegel arasında əsas fərqlər*

| | **Kant** | **Hegel** |
|---|---|---|
| Tarix modeli | Normativ və əxlaqi teleologiya | Dialektik və metafizik teleologiya |
| Azadlıq anlayışı | İnsan təbiətinin məqsədi, hüquqi strukturlar vasitəsilə gerçəkləşir | Dünya ruhunun məqsədi şüurun inkişafı ilə gerçəkləşir |
| Prosesin səbəbi | Təbiətin gizli planı və rasional potensial | Ruhun özünü tanımaq istəyi və ideyaların mübarizəsi |
| Son məqsəd | Ümumbəşəri sülh və hüquq sistemi | Azadlığın və ruhun tam şüura gəlməsi |

*Tablo-1. (Müəllif tərəfindən, Kant və Hegelin əsərlərinə əsasən tərtib edilib).*

Kant və Hegel hər ikisi, tarixə məqsədli bir istiqamət verərək onu xaotik hadisələr toplusundan fəlsəfi və strukturlaşmış bir prosesə çevirmişlər. Kant bu prosesi praktik ağıl və əxlaq çərçivəsində,

[1] “Ştat” sözü dilimizə ruscadan gətirilmişdir, mənası yenə də “state”, yəni “dövlət” deməkdir. Ona görə də ən dogrusu orijinalda olduğu kimi “Amerika Birləşmiş Dövlətləri” ifadəsidir.

Hegel isə dünya ruhunun dialektik inkişafı kontekstində izah edir. Hər iki yanaşma tarix fəlsəfəsində teleoloji modellərin, azadlıq ideyasının və insanın fəal subyekt kimi rolunun möhkəmlənməsində mühüm rol oynamışdır.

*Aydınlanma dövründə "tərəqqi" ideyası.* Aydınlanma dövrü (XVII-XVIII əsrlər) yalnız elmi və siyasi inqilablarla deyil, həm də insanlıq tarixinə dair fəlsəfi düşüncənin transformasiyası ilə səciyyələnir. Bu dövrün mərkəzi anlayışlarından biri də "tərəqqi" (proqres) ideyasıdır. Aydınlanma filosofları tarixi ağılın, azadlığın və insan potensialının mərhələli inkişafı kimi dəyərləndirmiş və tarixə ilk dəfə olaraq xətti və irəliyə yönəlmiş bir proses kimi baxmağa başlamışlar.

Tərəqqi anlayışı əsasən üç sütun üzərində qurulmuşdur: insan ağlı, təcrübəyə əsaslanan bilik və əxlaqi və sosial inkişaf imkanı. Aydınlanma düşüncəsində insan, təbiətə və topluma dair biliklərini artırdıqca, həm ətraf mühiti, həm də özünü daha yaxşı təşkil etmə bacarığına sahib olur. Bu isə təbii olaraq daha yaxşı idarəetmə, daha ədalətli toplum və daha az xurafat demək idi. "İnsan ağlı azad olduqca və elm inkişaf etdikcə, toplum da daha mükəmməl formaya qovuşacaq" [3, s. 7].

Bu baxışda tarix öz-özünə dövr edən və ya təsadüfi hadisələrin yığını deyil, insan iradəsinin və ağlının məhsulu olaraq yüksələn bir proses kimi dəyərləndirilir. İnsanlıq üçün universal məqsəd azadlıq, bərabərlik və rifahın yayılmasıdır. Tərəqqi ideyası bu məqsədə tədricən və mərhələli şəkildə çatmağı nəzərdə tutur.

Aydınlanma dövrünün bir çox zəkaları - Volter, Didro, Russo, Kondorse və Kant - ağlın və təhsilin rolunu vurğulayaraq, toplumun maariflənməsi ilə birlikdə mükəmməlləşəcəyini də iddia etmişlər. Onlar üçün təhsilin əsas vəzifəsi fərdin potensialını inkişaf etdirmək və onu "ağıl əsrinin" subyekti halına gətirmək idi. Kantın məşhur sözləri bu fikri təsbit edir: "Maariflənmə - insanın öz təqsiri ilə düşdüyü cahillikdən çıxmasıdır" [12, s. 1].

Burada tarixə baxış, sadəcə, keçmişə yönəlik deyil, həm də gələcəyə doğru normativ bir vəd daşıyır: ağıl və elm vasitəsilə daha yaxşı bir gələcək mümkündür.

Tərəqqi ideyası yalnız fəlsəfi deyil, siyasi və etik layihə olaraq da formalaşmışdır. Bu ideya mütləq monarxiyaya qarşı çıxan, insan hüquqlarını müdafiə edən, xalq hakimiyyətinə əsaslanan sistemlərin əsas ideoloji dayaq nöqtəsinə çevrilmişdir. Fransa İnqilabı (1789), Amerika Birləşmiş Dövlətlərinin qurulması (1776) və müxtəlif konstitusional islahatlar bu ideyanın praktik təzahürləri olmuşdur.

Lakin bu baxış birmənalı deyildi. Russo kimi bəzi aydınlanma tərəfdarları tərəqqi ilə bağlı tənqidi mövqe tutaraq, texnoloji və mədəni inkişafın insanı təbii halından uzaqlaşdırdığı fikrini irəli sürmüşlər. Buna baxmayaraq ümumi konsensus belə idi ki, tarix azadlıq, bilik və əxlaq baxımından daha yaxşı gələcəyə doğru irəliləyir.

Tərəqqi ideyası tarix fəlsəfəsində xətti zaman və inkişaf modeli üçün nəzəri zəmin yaratmışdır. Bu yanaşmaya görə, tarix mərhələli şəkildə daha yüksək formalar alır: barbarlıqdan sivilizasiyaya, təbiət halından hüquq halına, mifdən elmə, itaətdən azadlığa. Bu ardıcıllıq Kant, Hegel və Marks kimi filosofların sistemli tarix fəlsəfələrinə də daxil olmuş və modern universal tarix modellərinin təməlini təşkil etmişdir.

Aydınlanma dövründə formalaşan "tərəqqi" ideyası, tarixə optimist, teleoloji və humanist bir çərçivə gətirmişdir. Bu ideya tarixə yalnız keçmişin təsviri kimi deyil, gələcəyə yönəlmiş fəlsəfi layihə kimi baxmağı mümkün etmişdir. Aydınlanma düşünürlərinin fikrincə, insan təbiətindəki ağıl və əxlaq potensialı tarixi irəliləyişin motorudur; bu isə tarix fəlsəfəsində müasir dünyagörüşün formalaşmasında həlledici rol oynamışdır.

## İstifadə olunmuş ədəbiyyat

1. Aristoteles. (2014). *Politika* (Çev. Mete Tunçay). Remzi Kitabevi.
2. Augustinus, A. (2015). *Tanrı Devleti (De Civitate Dei)* (Çev. Y. Şahin). Sufi Kitap.
3. Condorcet, M. (1955). *Sketch for a historical picture of the progress of the human mind* (J. Barraclough, Trans.). New York: Noonday Press. (Əsər orijinal olaraq 1795-ci ildə yazılıb).
4. Foucault, M. (1961). *Histoire de la folie à l'âge classique.* Paris: Plon.
5. Foucault, M. (1975). *Surveiller et punir: Naissance de la prison.* Paris: Gallimard.

6. Foucault, M. (1978). *The history of sexuality: An introduction* (Vol. 1). New York: Pantheon Books.
7. Fukuyama, F. (1992). *The end of history and the last man*. New York: Free Press.
8. Ginzburg, C. (1976). *Il formaggio e i vermi: Il cosmo di un mugnaio del '500*. Torino: Einaudi.
9. Hegel, G. W. F. (2001). *The philosophy of history* (J. Sibree, Trans.). Dover Publications. (Əsər orijinal olaraq 1837-ci ildə yayımlanıb).
10. Herodot. (2008). *Histories* (Trans. Robin Waterfield). Oxford University Press.
11. İbn Haldun. (2010). *Mukaddime* (Çev. Süleyman Uludağ). Dergah Yayınları.
12. Kant, I. (1784/2006). *Beantwortung der Frage: Was ist Aufklärung?* In *Berlinische Monatsschrift*. Reprinted in W. Beierwaltes (Ed.), *Aufklärung: Texte und Dokumente* (s. 12–17). Reclam.
13. Kant, I. (1991). *Idea for a universal history with a cosmopolitan purpose*. In H. S. Reiss (Ed.), *Kant: Political writings* (pp. 41–53). Cambridge University Press. (Əsər orijinal olaraq 1784-cü ildə yazılıb).
14. Lyotard, J.-F. (1979). *La condition postmoderne: Rapport sur le savoir*. Paris: Minuit.
15. Marx, K. (1972). *The eighteenth brumaire of Louis Bonaparte* (E. Hobsbawm, Ed.). New York: International Publishers. (Əsər orijinal olaraq 1852-ci ildə yazılıb).
16. Marx, K., & Engels, F. (1970). *The German ideology*. International Publishers. (Əsər orijinal olaraq 1846-cı ildə yazılıb).
17. Marx, K., & Engels, F. (1998). *The communist manifesto*. Oxford University Press. (Əsər orijinal olaraq 1848-ci ildə yayımlanıb).
18. Nietzsche, F. (1989). *On the genealogy of morals* (W. Kaufmann & R. J. Hollingdale, Trans.). Vintage. (Əsər orijinal olaraq 1887-ci ildə yazılıb).
19. Nietzsche, F. (1997). *On the advantage and disadvantage of history for life* (P. Preuss, Trans.). Hackett Publishing. (Əsər orijinal olaraq 1874-cü ildə yazılıb).
20. Platon. (2010). *Devlet* (Çev. Sabahattin Eyüboğlu & M. Ali Cimcoz). Türkiye İş Bankası Kültür Yayınları.
21. Spengler, O. (1926). *The decline of the West* (C. F. Atkinson, Trans., Vol. I). Alfred A. Knopf. (Orijinal Almanca: *Der Untergang des Abendlandes*, 1918).
22. Spivak, G. C. (1988). Can the subaltern speak? In C. Nelson & L. Grossberg (Eds.), *Marxism and the interpretation of culture* (pp. 271–313). Urbana: University of Illinois Press. (Subaltern anlayışı üçün.)
23. Toynbee, A. J. (1934–1961). *A study of history* (12 vols.). Oxford University Press.
24. Tukidid. (2009). *The Peloponnesian War* (Trans. Martin Hammond). Oxford University Press.
25. Vico, G. B. (2002). *The new science* (D. Marsh, Trans.). Penguin Classics. (Orijinal adı: *Scienza Nuova*, 1744).
26. Voltaire. (2009). *Essai sur les mœurs et l'esprit des nations* [Essay on the customs and the spirit of the nations]. Gallimard. (Əsər orijinal olaraq 1756-cı ildə yayımlanıb).

**Rəyçi: f.e.d., prof. Füzuli Qurbanov**